*UOT: 37.01*

***Nabat Natiq qızı Əhmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orsid.org/0009-0008-4325-4533*
*E-mail: nabatahmadova377@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(5).66-69*

# ŞAGİRDLƏRİN ÖYRƏNMƏ FƏALİYYƏTİNİN İNKİŞAFINDA MƏKTƏB MÜHİTİNİN ROLU

***Nabat Natig Ahmadova***
*lecturer at Azerbaijan State Pedagogical University,*

# THE ROLE OF THE SCHOOL ENVIRONMENT IN THE DEVELOPMENT OF STUDENTS' LEARNING ACTIVITIES

***Набат Натиг гызы Ахмедова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# РОЛЬ ШКОЛЬНОЙ СРЕДЫ В РАЗВИТИИ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧАЩИХСЯ

**Xülasə**. Qloballaşan dünyada cəmiyyətdə, insan fəaliyyətində, münasibətlərində, yaşam tərzində, təlim-tərbiyə təsisatlarında sürətli dəyişikliklər baş verməkdədir. Bütün bu proseslər öyrənmə fəaliyyətinə yeni yanaşmalar və tələbatlarla müşayiət olunur. Bununla əlaqədar olaraq təhsilin məzmununa yeni yanaşmalar, müasir təlim metod və texnologiyaları, öyrənmə motivasiyası kimi məsələlər araşdırılır, tədqiqat nəticələri gündəmə gəlir. Cəmiyyətdə baş verən köklü dəyişikliklərin mərkəzində təhsil və ona münasibət dayanır. Məhz motivasiya insanı qarşısına qoyduğu məqsədə çatmağa təhrik edir. Bundan başqa, insanın istənilən uğurlarının səbəbi təkcə onun bilik və bacarığından asılı deyil, bu, həm də şəxs və onun motivlərindən asılıdır. Motivə olunmamış insan, bir iş görməkdə tənbəllik edir, qarşısına qoyduğu məqsədə çox vaxt çata bilmir. Fikrimizcə, insanın motivasiyası nə qədər güclü olarsa, onun fəaliyyəti də bir o qədər uğurlu alınar. Hər cür müəllim-şagird münasibətləri motivasiya sayəsində daha uğurlu alınır. Müəllim şagirdlərə təsir etməsə onlar təlimdə fəal olmaz, müsbət motivlər yaranmaz, məktəbli qarşısına uğurlu öyrənmə hədəfi qoya bilməz. Motivlərin öyrənilməsi məsələsi kifayət qədər çətin təcrübi tapşırıqdır. Əgər təhsil və təlimin keyfiyyətini yüksəltmək istəyiriksə, onda bu problemin həlli vacibdir.
***Açar sözlər:*** *məktəb mühiti, tərbiyə, inkişaf, motivasiya, müəllim-şagird*

**Abstract**. In the globalized world, rapid changes are taking place in society, human activities, relationships, lifestyles, and educational institutions. All these processes are accompanied by new approaches and demands for learning activities. In this regard, issues such as new approaches to the content of education, modern teaching methods and technologies, and learning motivation are being investigated, and research results are being put on the agenda. Education and the attitude towards it are at the center of the radical changes taking place in society. It is precisely motivation that motivates a person to achieve the goal he sets for himself. In addition, the reason for any success of a person does not depend only on his knowledge and skills, but also on the person and his motives. An unmotivated person is lazy in doing something and often fails to achieve the goal he sets for himself. In our opinion, the stronger a person's motivation, the more successful his activity will be. All kinds of teacher-student relationships are made more successful thanks to motivation. If the teacher does not influence students, they will not be active in learning, positive motives will not arise, and the student will not be able to set a successful learning goal. The study of motives is a rather difficult empirical task. If we want to improve the quality of education and training, then solving this problem is essential.
***Keywords****: school environment, upbringing, development, motivation, teacher-student*

**Аннотация.** В глобализирующемся мире происходят быстрые изменения в обществе, человеческой деятельности, отношениях, образе жизни и образовательных учреждениях. Все эти процессы сопровождаются новыми подходами и требованиями к учебной деятельности. В этой связи изучаются

такие вопросы, как новые подходы к содержанию образования, современные методы и технологии обучения, мотивация обучения, а также представляются результаты исследований. Образование и отношение к нему находятся в центре радикальных изменений, происходящих в обществе. Именно мотивация побуждает человека достигать поставленной цели. Более того, причина любого человеческого успеха зависит не только от его знаний и умений, но и от самого человека и его мотивов. Немотивированный человек ленив, когда дело касается каких-либо действий, и часто не достигает поставленной цели. По нашему мнению, чем сильнее мотивация человека, тем успешнее будет его деятельность. Все виды взаимоотношений между учителем и учеником становятся более успешными благодаря мотивации. Если учитель не оказывает влияния на учеников, они не будут активны в обучении, у них не возникнет положительной мотивации, и ученик не сможет ставить успешные учебные цели. Изучение мотивов – довольно сложная экспериментальная задача. Если мы хотим повысить качество образования и обучения, то решение этой проблемы является необходимым.

***Ключевые слова:*** *школьная среда, воспитание, развитие, мотивация, учитель-ученик*

Təhlillər göstərir ki, son illər bilik əldə etmək istəməyən şagirdlərin sayı davamlı olaraq artmaqdadır. Hətta bu ibtidai sinif şagirdləri arasında da özünü göstərməkdədir. Öyrənmək istəyinin aşağı olması, şagirdlərin verilən tapşırıqları yerinə yetirməməsi, dərs vəsaitlərinin səliqəsiz saxlanılması, dərslərdə şəkil çəkmək, pəncərədən baxmaq, sinif yoldaşları ilə söhbət etmək, telefon oynatmaq, dərsin onlar üçün maraqsız olması ilə müşayiət olunur. Hətta təcrübəli müəllim və valideynlər də bu suala cavab verməkdə çətinlik çəkirlər [4].

Təlim fəaliyyəti üçün motivasiyanın formalaşdırılması problemi bir çox pedaqoji və psixoloji nəzəriyyə və yanaşmalarda öz əksini tapır. Alimlərin qənaətinə görə tədris prosesi elə təşkil olunmalıdır ki, öyrənmə fəaliyyətindən özünüinkişaf fəaliyyətinə keçid təmin edilsin. Tədqiqatçıların bir qismi öyrənməni təlim metodları vasitəsilə fənnin məzmununun uğurlu mənimsənilməsi kimi izah edir. Pedaqoqların bir çoxu öyrənmə fəaliyyətini öyrənən tərəfindən müstəqil olaraq seçilən fərdi idrak fəaliyyəti kimi vurğulayır. Digər bir qisim alimlər təlim fəaliyyətini subyektin özünə yönəldir. Xarici pedaqoq və psixoloqlar isə bunu şəxsi inkişaf və mənəvi təcrübə əldə etməyə keçmək kimi dəyərləndirir. Yuxarıda verilən fikirləri ümumiləşdirərək biz belə qənaətə gəlirik ki, təlim fəaliyyəti idrak marağı və onun sayəsində şagirdin özünüdərketmə ehtiyacını yaradan fərdi məqsədli fəaliyyətdir.

Şagird təlim fəaliyyəti prosesində problemlərin həllini mənimsədiyi üçün müasir öyrədənin vəzifəsi fənnin məzmunu vasitəsilə təhsilə dəyərli münasibət formalaşdırmaqdır [3]. Fənnin məzmunu deyərkən müəllimin öyrətmə prosesində şagirdə hər hansı bir şəkildə çatdıracağı elmi informasiyalar başa düşülür.

Öyrənmə prosesində təhsil verən ən son təhsil texnologiyalarını bilməli və öz fəaliyyətində fəal təlim texnologiyalarından yaradıcılıqla istifadə etməlidir (problemli təlim, oyun texnologiyaları, təlim texnologiyaları). Bütün bunlarla yanaşı təlim fəaliyyətinin təşkilində ənənəvi və aktiv öyrənmənin müxtəlif üsulları əlaqələndirilərsə, müəllim motivasiya potensialına malik ola bilər. Təlim fəaliyyətinin motivasiyası şagirdlərin potensialının meydana çıxmasını, özünü realizə etmə bacarığını nəzərdə tutur.

Beləliklə, təlim fəaliyyəti fərdi idrak fəaliyyətidir. Təlim prosesində şagird fənnin məzmununu mənimsəməklə bərabər öyrənməni hansı yollarla reallaşdırmanın üsullarını da mənimsəyir. Araşdırmalar göstərir ki, bu cür fəaliyyət uyğun motivlərlə həyata keçirilməlidir [6].

Təhsilalanlar təlimi məqsədlərinə çatmaq üçün fəallıq və inadkarlıq nümayiş etdirmələri təqdirdə əldə olunan nəticədən daha çox ləzzət alırlar. Motivlər mənfi də ola bilər, məsələn, valideynlər tərəfindən cəzalandırılmaq qorxusu ilə əlaqədar və pozitiv də ola bilir - ətrafdakılar üçün yararlı və faydalı olmağa cəhd edirlərsə.

Şagirdin hər hansı bir işi müstəqil və şüurlu yerinə yetirməsi özündən razılığın açarıdır və gələcəkdə peşəkar səriştənin formalaşmasına müsbət təsirini göstərəcəkdir.

Müasir dövrdə tədqiqatçıların çoxu peşə səriştəsini konkret peşəyə aid bilik və bacarıqların, eyni zamanda konkret peşə fəaliyyətinin həyata keçirilməsi yollarının məcmusu kimi səciyyələndirirlər. İnsanın peşə səriştəsi davamlı özünütəhsil və özünütəkmilləşdirməyə əsaslanan istək, işə yaradıcı və məsuliyyətli münasibət kimi müəyyən edilir. Peşəkar səriştə peşəkar

problemləri həll etməyə hazır olmaqda ifadə olunan şəxsi keyfiyyətdir.

Motiv və tələbatlar bir-biri ilə qarşılıqlı əlaqədə olur və bir-birinin təsiri sayəsində dəyişə bilir. Təlim fəaliyyətinin motivləri qeyd etdiyimiz kimi, xarici və daxili faktorların təsiri altında dəyişir. Müəyyən məqsəd və ona nail olmaq imkanı varsa uğursuzluğun aradan qaldırılmasına xarici faktorlar, insanı hərəkətə sövq edən isə daxili motivlərdir. Təhlillər göstərir ki, motivasiyaedici amillər paralel, eyni vaxtda və müstəqil şəkildə özünü biruzə verə bilir [3].

Tədris prosesinin son məqsədi məktəblini gələcək həyata hazırlamaqdır. Bu məqsədin həyata keçirilməsi şagirdlərin müəyyən bacarıqlara yiyələnməsini zəruri edir.

Araşdırmalar göstərir ki, motivasiya geniş anlayışdır, ona görə də onu müxtəlif prizmalardan təhlil etmək lazımdır. Motivasiya öyrənmənin psixoloji əsası hesab olunur. Məhz buna görə öyrənmə prosesindəki emosional sabitlik təhsil prosesində etibarlılığın, uğurun və səmərəliliyin vacib amillərindən biridir. Digər bir tərəfdən, idarəetmə nəzəriyyələri motivasiyanı özünü və ya digərlərini məqsədyönlü davranışa sövq etmək, stimullaşdırmaq və ya öz məqsədinə və ya təhsil müəssisəsinin məqsədinə çatmağa konkret hərəkətləri reallaşdırmaq prosesi kimi nəzərdən keçirir. Digər tərəfdən, motivasiya müəyyən bir şəxsi ehtiyacı ödəmək, məqsədlərə çatmaq üçün hər cür səy göstərməyə hazır olmaq kimi səciyyələndirilir.

Sonda qeyd etmək istərdik ki, təlim motivasiyası problemi uzun bir inkişaf yolu qət etmişdir. Araşdırmalar deməyə əsas verir ki, öyrənmə fəaliyyəti üçün motivasiya labüddür. Motivasiya öyrənənin fəaliyyətinin xarici stimullaşdırılmasından istifadə etməklə onun daxili-zehni prosesini hərəkətə gətirə bilir. Burada əsas təsir edici amillər rolunda məqsədlər, xarici mühitin təsiri, nailiyyətə münasibət, sosial ehtiyaclar çıxış edir.

Təlim fəaliyyətinin motivasiyasının mövcud vəziyyəti necədir? Təhsil müəssisəndə fəaliyyət göstərən hər bir müəllim bilir ki, əgər məktəbli öyrənmə prosesinə maraqsız yanaşırsa, mövcud ehtiyaclarını dərk etmirsə, onda onun həyati bacarıqlarını formalaşdırnaq praktiki olaraq mümkün deyil. Digər bir tərəfdən bütün müəllimlər motivasiyanın formalaşdırılmasına lazımı diqqət ayırmır və buna görə təhsil keyfiyyəti aşağı düşür. Bu baxımdan şagirdlərin təlim motivasiyasının artmasına hansı amillərin təsir etdiyini dəqiqləşdirmək lazımdır.

Şagirdləri təlim fəaliyyətinə həvəsləndirmək üçün son onilliklər yerli və xarici alimlərin təhsilalanların aşağı motivasiya problemlərini vurğulayan tədqiqatları meydana çıxıb. Tədqiqatçılar şagirdlərin təlim fəaliyyətinin motivasiyasını artırmağa kömək edən bir neçə amil müəyyənləşdirmişlər [6]. Təhlillərin nəticəsinə görə, bu amillər əhəmiyyətinə görə azalma ardıcıllığı ilə belə sıralanır.

- Şagirdlərin öyrənməyə marağını artırmaq üçün işgüzar təlim mühitinin yaradılması, bu amili həyata keçirmək üçün şagirdlərdə öyrənmə marağı doğura biləcək ən uyğun pedaqoji texnologiyalardan yararlanmaqla təhsil prosesinin psixoloji və pedaqoji dəyərlətindən istifadə etmək, həmçinin şagirdlərin müstəqil fəaliyyətlərini də dəstəkləmək lazımdır.

- İkinci ən mühüm, həm də az vacib olmayan amil şagirdin daxili aləminə müsbət və mənfi təsir göstərən əlverişli təhsil mühitidir. Qeyd etmək lazımdır ki, öyrənmə baxımından psixoloji cəhətdən əlverişli təlim mühiti şagirdləri motivasiya edə, əlverişsiz mühit isə mənfi emosiyalara səbəb ola bilir və adekvat olaraq motivasiyanı azalda bilir. Psixoloji nöqteyi-nəzərdən təhsil mühiti qrup halında insanların emosional davranışına və sonda bütöv qrupun işinə təsir göstərir. Alimlər bu prosesi "emosional yoluxma" adlandırır. Yəni, başqalarının əhval-ruhiyyəsi və emosiyalarının digərlərinin emosional vəziyyətinə təsir etdiyi kimi.

- Üçüncü amil şagirdin özünü istiqamətləndirməsidir. Bu proses "özünü planlaşdıran öyrənmə", "müstəqil öyrənmə" və ya "avtonom öyrənmə" kimi təqdim edilir.

Alimlərin qənaətinə görə müstəqil öyrənmə və vaxtında yaradılmış əks əlaqə şagirdlərin təlim motivasiyasının formalaşması üçün vacibdir. Vaxtında verilən dəyər və rəy bütün dəyişiklikləri tez əks və müəyyən etdirməli, öyrənmə fəaliyyəti prosesində şagirdin fəaliyyətinin artmasına effektiv təsir göstərməlidir. Yəni, əlaqə nə qədər sürətli və dəqiq olarsa öyrənməyə də bir o qədər təsir edə bilər.

- aktivlik və praqmatizm. Müəllim öyrətdiyi nəzəri materialı müxtəlif praktik vəziyyətlərin həlli üçün tətbiq etdirməli və eyni vaxtda bu biliklərə ehtiyac olduğunu vurğulamalıdır.

Bu zaman şagirdlərdə öyrənməyə maraq hiss olunur və uyğun olaraq onların motivasiyası da artır.

Uğur əldə etməyin subyektiv ehtimalı şagirdin uğur şansını dəyərləndirməsi ilə əlaqədardır. Araşdırmalar onu deməyə əsas verir ki, uğur əldə etməyin subyektiv ehtimalı çox vaxt obyektiv ehtimaldan fərqlənir. Nailiyyətin subyektiv ehtimalı asan və ya nisbətən çətin tapşırıqlarda obyektiv ehtimaldan yüksək olur. Məlum olduğu kimi insanın uğursuzluğu uğur ehtimalını azaldır.

**Problemin aktuallığı.** Bu məqalənin aktuallığı ondan ibarətdir ki, məktəb mühitində təhsilalanların öyrənmə səviyyəsinin artırılması hər zaman səmərəli nəticələr verir.

**Problemin elmi yeniliyi.** Bu mövzuda çoxsaylı tədqiqatlar aparılmış və bu araşdırmalar məqalədə öz əks edilmişdir.

**Problemin təcrübi əhəmiyyəti.** Tədqiqat sahəsində çalışan elm xadimləri bu mövzu ilə bağlı tədqiqatlarında bu materialdan faydalana biləcəklər.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı // 15 iyun 1999-cu il, – Bakı: Qanun, – 1999. – 65 s.
2. Dəmirov, A. Yeni təlim texnologiyaları və müasir dərs. / A. Dəmirov, S. Məmmədov, Ş. İsmayılov. – Bakı:, – 2007. – 342 s.
3. Ələkbərova, U. İnsan inkişafının əsasları / U. Ələkbərova. – Bakı: Azpoliqraf, – 2016. – 280 s.
4. Ələsgərova, S. Şagirdlərin yaradıcı təfəkkürünün və tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsi. / S. Ələsgərova. – Bakı: Təhsil, – 2018. №2, -3 s.
5. Əliyev, P. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. / P. Əliyev, H. Əhmədov. – Bakı: – ABU, – 2004. – 220 s.
6. Eminov, A. Pedaqogika. Dərs vəsaiti. / A. Eminov, P. Mədədov. – Bakı: –Kövsər, –2011. – 408 s.
7. Həbibova, Z. İnsan potensialı idarəetmə və inkişaf faktoru kimi / Z. Həbibova. – Bakı: Elm və Təhsil, – 2017. –180 s.
8. Həsənov, A. Pedaqogika Dərslik. / A. Həsənov, Ə. Ağayev. – Bakı: Nasir, -2007. – 496 s.
9. Həşimova, A. Şagirdlərin öyrənmə motivasiyasının artırılmasında valideynlərin rolu. // arti.edu.az.16.09.21
10. Hüseynzadə, R. Ailə pedaqogikası Dərslik. / R. Hüseynzadə, L. Allahverdiyeva. – Bakı: ADPU-nun mətbəəsi, – 2016. – 340 s.


**Redaksiyaya daxil olub:** 17.09.2025.